

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 122 (21.532)

5 iyul 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında
## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin
## Sərəncamı

Naxçıvan Muxtar Respublikasının ərazisi xalqımıza məxsus maddi-mədəniyyət nümunələri və abidələrlə zəngindir. Belə abidələrdən biri də Qarabağlar Türbə Kompleksidir.

Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən və XII-XIV əsrlərə aid edilən kompleksdən dövrümüzədək qoşa minarəli baştağ və türbə gəlib çatmışdır. Azərbaycan xatirə memarlığının mütərəqqi ənənələrini yaşadan bu abidə memarlıq quruluşuna və oxşar cəhətlərinə görə Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsidir.

Türbə kompleksi göstərir ki, Qarabağlar orta əsrlərdə Azərbaycanın inkişaf etmiş mədəniyyət mərkəzlərindən və böyük şəhərlərindən biri olmuşdur.

Dünya əhəmiyyətli abidə olan Qarabağlar Türbə Kompleksinin bərpasını və abidənin tədqiqini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə Qarabağlar Türbə Kompleksində bərpa işlərinin elmi və tarixi əsaslarla aparılmasını təmin etsin.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi "Qarabağlar Türbə Kompleksi" tədqiqat qrupu yaratsın.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 iyul 2016-cı il*

## "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi və etnoqrafik atlası hazırlanır



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun 2016-cı il üzrə iş planına uyğun olaraq "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi və etnoqrafik atlasının hazırlanması nəzərdə tutulub. Bununla bağlı olaraq AMEA-nın Naxçıvan Bölməsində tədbir keçirilib.***

Bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, "Kitabi-Dədə Qorqud" dastanında ifadə olunan çoxsaylı toponimlərin Naxçıvan ərazisində qeydə alınması bu regionun qədim Oğuz yurdu olduğunu bir daha təsdiqləyir. Ona görə də atlasda "Kitabi-Dədə Qorqud" dastanının Naxçıvanla bağlılığı dərindən araşdırılır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının inzibati ərazisinə daxil olan 87 kəndə ekspedisiya təşkil olunub. 200-ə yaxın informatordan məlumatlar toplanıb. 100-dən artıq informatorun şəxsi məlumatları isə artıq elektronlaşdırılıb. Bundan başqa, ekspedisiya zamanı "Kitabi-Dədə Qorqud" dastanında adıçəkilən bir çox məişət əşyalarının rəsmləri çəkilib və haqlarında məlumatlar toplanılıb. Həmin məlumatlar atlasda yerləşdirilir.

Tədbirdə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev və başqaları mövzu ətrafında çıxış edərək fikirlərini bölüşüblər.

Hazırda atlasın hazırlanması istiqamətində işlər davam etdirilir. Atlas ilin sonuna qədər nəşr olunacaq.

*Şahbuz Şəhər Mərkəzində keçirilən bələdiyyə orqanlarında qanunvericiliyin tətbiqi ilə bağlı görülən işlərə həsr olunmuş tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev açıb.*

## Bələdiyyə orqanlarında qanunvericiliyin tətbiqi ilə bağlı görülən işlər müzakirə olunub



Tədbirdə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev mövzu ilə bağlı çıxış edib. Bildirib ki, bələdiyyələrə metodik köməkliyin göstərilməsi istiqamətində işlər mütəmadi olaraq davam etdirilir. Məqsəd qarşıya qoyulmuş vəzifələrin qanunvericiliyin tələblərinə uyğun icrasına nail olmaqdır. Bu tədbirlər vasitəsilə bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsi, yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsi, bələdiyyə qanunvericiliyinin öyrənilməsi və tətbiq edilməsi, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulması ilə bağlı onlara ətraflı məlumatlar verilir.

Nazir bildirib ki, Şahbuz rayonunda fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə son illərdə rayon İcra Hakimiyyəti ilə birlikdə dəfələrlə yoxlamalar keçirilib. Aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə hərtərəfli metodik köməkliklər göstərilib. Kənd yerlərində fiziki və hüquqi şəxslər tərəfindən bələdiyyə mülkiyyətində olan torpaq sahələrində icarə müqavilələri bağlamaqla kənd təsərrüfatı məhsulları istehsalına diqqət daha da artırılmalı, muxtar respublikada kənd təsərrüfatı məhsullarının bolluğunun yaradılmasında bələdiyyələrin rolu gücləndirilməlidir.

Vurğulanıb ki, ötən dövr ərzində keçirilən maarifləndirici tədbirlər, verilmiş tövsiyə və təkliflər rayon üzrə bələdiyyələrin fəaliyyətində irəliləyişə və uğurların qazanılmasına öz təsirini göstərib. Bununla yanaşı, 2016-cı ilin muxtar respublikamızda "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan olunması bələdiyyələrin də üzərinə mühüm vəzifələr qoyur. Ona görə də hər bir bələdiyyə üzvü öz vəzifə borcuna daha ciddi yanaşmalıdır.

Tədbirə rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev yekun vuraraq bildirib ki, rayonda bələdiyyələrin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması üçün hər cür imkanlar var və son illərdə onların fəaliyyətində canlanma müşahidə olunması da bunu deməyə əsas verir.

Tədbirin sonunda iştirakçılara "Yerli özünüidarə ilə bağlı hüquqi aktlar toplusu" və "Bələdiyyələrin maliyyə hesabatlarının tərtibinə dair məsələlər toplusu" kitabları təqdim olunub.

## Gənclər hərbi xidmətə yola salınırlar

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, mayor Cavid Məmmədov açıb.

Mərasimdə Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini Emin Səfərov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Gültəkin Qələndərova övladının hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini bildirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Əli Babayev Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu gün Azərbaycanın, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini sayıqlıqla müdafiə edən müasir və güclü ordusu vardır. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişaf etməsi Silahlı Qüvvələrimizin istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu göstərir. Bu yaxınlarda ordumuzun cəbhədə düşmənə layiqli cavabı bunu bir daha sübut etdi.

Xidmət rəisi Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini və yaxınlarını təbrik edib, əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, hərbi texnikanın sirlərinə yaxından yiyələnməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını uca edəcəklər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin hərbi xidmətə yola salınması mərasimləri keçirilib.

## Nağdsız ödənişlərin aparılmasında fəallıq göstərən vətəndaşlara hədiyyələr verilib

***"Nağdsız ödəyin, hədiyyə qazanın!" tədbirinin beşinci tirajı keçirilib.***

Babək rayonunda hədiyyələrin təqdim olunmasından əvvəl çıxış edən Naxçıvan Muxtar Respublikası vergilər nazirinin müavini Nurlan Əliyev bildirib ki, nazirlik tərəfindən nağdsız ödənişlərin həcminin artırılması məqsədilə hər 6 ayda bir dəfə "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin keçirilməsi nəzərdə tutulub. Əvvəllər də bu istiqamətdə bir sıra tədbirlər keçirilib və vətəndaşlar həmin tədbirlərdə həvəslə iştirak ediblər. Nəzarət-kassa aparatları vasitəsilə nağd pul hesablaşmalarının aparılması üzərində ictimai nəzarətin gücləndirilməsi məqsədilə "Kassa çeki alın, avtomobil qazanın!" adlı stimullaşdırıcı lotereya oyunu zamanı tirajın 4 qalibi muxtar respublikanın sakinləri olublar.

Nurlan Əliyev bildirib ki, 2014-cü ildən başlayaraq "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirə start verilib. Həmin il 223 vətəndaşa 20 min manatlıq hədiyyə təqdim edilib. 2015-ci ildə muxtar respublika üzrə 398 vətəndaşa 20 min manat dəyərində məişət avadanlıqları təqdim olunub. Bu tirajda hədiyyə qazanmış şəxslərin sayı 221 nəfərdir. Onların 26 nəfəri Babək rayonunun sakinləridir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədr müavini Elvin Axundov bildirib ki, cari ilin yanvar-iyun ayları ərzində muxtar respublika sakinləri tərəfindən aparılmış nağdsız ödənişlərin 4 milyon 484 min manatı POS-terminallar, 7 milyon 606 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilib. Bu da onu göstərir ki, 2016-cı il ərzində nağdsız ödəniş sistemi və onun infrastruktur alətlərinin təkmilləşdirilməsi ilə yanaşı, ictimaiyyətin maarifləndirilməsi istiqamətində aparılan geniş təbliğat-təşviqat işləri bəhrəsiz qalmayıb.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşı Rəşad Əliyev çıxışında diqqətə çatdırıb ki, hədiyyələr 3 meyar üzrə müəyyən edilib. Birinci meyar üzrə 400 manatdan 601 manatadək nağdsız əməliyyat aparan şəxslərə təqdim olunacaq hədiyyələrin dəyəri 35-55 manat arasındadır. Bu meyarda Babək rayonu üzrə 14 şəxs hədiyyə qazanıb. İkinci meyar üzrə 601 manatdan 801 manatadək nağdsız əməliyyat aparan şəxslərə təqdim olunacaq hədiyyələrin dəyəri 60-75 manat arasındadır. Babək rayonunda 9 şəxs belə hədiyyə qazanıb. Üçüncü meyar üzrə 801 manatdan çox əməliyyat aparan şəxslərə veriləcək hədiyyələrin dəyəri 80-110 manat arasındadır ki, bu meyar üzrə Babək rayonundan 3 şəxs hədiyyə qazanıb.

Həmin gün analoji tədbir Culfa, Ordubad və Şahbuz rayonlarında da keçirilib. Culfa rayonunda birinci meyar üzrə 13, ikinci meyar üzrə 10, üçüncü meyar üzrə 8 şəxs, Ordubad rayonunda birinci meyar üzrə 14, ikinci meyar üzrə 10, üçüncü meyar üzrə 3 şəxs, Şahbuz rayonunda birinci meyar üzrə 12, ikinci meyar üzrə 6, üçüncü meyar üzrə 4 şəxs hədiyyə qazanıb.

Bu gün Naxçıvan şəhərində, Kəngərli, Şərur və Sədərək rayonlarında qaliblərə hədiyyələr təqdim ediləcək.

**Xəbərlər şöbəsi**

# BABƏK: uğurlar bütün sahələri əhatə edir

## *Rayonun inkişaf dinamikası ilbəil güclənir*

***Bura o bölgəmizdir ki, sovet dönəminin 80-ci illərində muxtar respublikanın qabaqcıl kənd təsərrüfatı rayonu kimi ad çıxarmış, o zaman ən gəlirli sahə sayılan pambıqçılığın və üzümçülüyün bayraqdarına çevrilmişdi. Zaman o zaman oldu ki, Sovet İttifaqı dağıldı, rayonun iqtisadiyyatı məhvə sürükləndi. Ancaq rayon sakinləri inandılar ki, öz əli ilə qurub-yaratdığı rayonu dahi rəhbər Heydər Əliyev köməksiz, tənha qoymayacaq, böyük iqtisadi potensiala malik Babək rayonunun da taleyi etibarlı əllərə, qurub-yaradan insanlara, sözün həqiqi mənasında, Vətənini, elini-obasını sevənlərə, insanların qayğısına qalanlara tapşırılacaq. Belə də oldu, rayon sakinlərinin ümidləri özünü doğrultdu, böyük rəhbərimiz muxtar respublikanın bütün bölgələri kimi, Babək rayonundan da qayğısını, diqqətini əsirgəmədi. Dövlətə sədaqətli, torpağa dərin məhəbbətlə bağlı, doğma el-obasını cənnətə döndərmək istəyən insanların, aydın məqsədli vətən oğullarının minbir zəhməti nəticəsində rayon yenidən ölkəmizin ən inkişaf etmiş bölgələrindən birinə çevrildi. Rayon əhalisini illərdən bəri narahat edən sosial problemlər həll olundu, insanların firavan yaşayışı təmin edildi, ailələrin məişət qayğıları öz həllini tapdı. Sanki hansısa bir rəssam rayonun sovetlər dönəminin son illərində və müstəqilliyimizin ilk illərində, sadəcə, cansız rənglərdən ibarət olan mənzərəsini dəyişdirdi, bu mənzərəni al-əlvan rənglərə boyadı.***



### *Rayonun bu gününə qısa baxış, dününə kiçik ekskurs*

Bu gün Babək rayonunun qəsəbə və kəndləri başdan-başa yenidən qurulur. Rayon sakinləri küçə və prospektlərdə, park və xiyabanlarda, əkin sahələrində elə həvəslə, elə canla-başla işləyirlər ki, insan heyranlığını gizlədə bilmir. Hər əkilən ağacın, hər gül-çiçək kolunun başına pərvanə kimi dolanan sakinlər bu rayonu muxtar respublikanın ən gözəl bölgəsinə çevirmək üçün əllərindən gələni əsirgəmirlər. Babək rayonunda diqqətçəkən təkcə abadlıq, quruculuq sahəsində qazanılan uğurlar deyil. Yeni istehsal və emal müəssisələrinin yaradılması, çox sayda iş yerlərinin açılması, əhalinin sosial problemlərinin həll edilməsi, aqrar sahədə dinamik inkişafa nail olunması son illərin uğurlarındandır. Rayonun yaranma tarixinə qısa nəzər salaraq qeyd etmək yerinə düşər ki, ulu öndərimizin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, Azərbaycanın dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi ortaya çıxan, 1978-ci il oktyabrın 23-də təşkil olunan yeni rayona mərkəzi hakimiyyətin iradəsinin əksinə olaraq Babək adının verilməsi görkəmli dövlət xadimi Heydər Əliyevin qətiyyətinin, milli yaddaşın bərpası istiqamətində həyata keçirdiyi taleyüklü tədbirlərin nəticəsi idi. 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında aqrar islahatların və onun mühüm tərkib hissəsi olan torpaq islahatlarının aparılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının maddi rifah halının yüksəldilməsi, istehsal şəraitinin yaxşılaşdırılması, uzun illərdən bəri Azərbaycan əkinçisinin torpaq mülkiyyətçisi olması arzusunun reallaşdırılması, yeni torpaq-əkinçi münasibətlərinin formalaşdırılması müasir tariximizin ən önəmli səhifələrindən biridir.

### *Aqrar sahədə həyata keçirilən tədbirlər öz bəhrəsini verib*

Aqrar islahatlar nəticəsində muxtar respublikada, eləcə də Babək rayonunda torpaq üzərində üç mülkiyyət forması müəyyənləşdirilib. Rayonun torpaq fondunu təşkil edən 76 min 32 hektar torpaq sahəsindən 20 min 821 hektar dövlət mülkiyyətində saxlanılıb, 42 min 700 hektar torpaq sahəsi bələdiyyə mülkiyyətinə verilib, 12 min 511 hektar isə xüsusi mülkiyyətə ayrılıb. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, 1978-ci ildən indiyə qədər 40-dan çox nasos stansiyası, 50-dək subartezian quyusu tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilib, 7 su anbarı yaradılıb. 2005-ci ildə ulu öndərin adını daşıyan su anbarı istifadəyə verildikdən sonra rayonun 13 min 869 hektar sahəsinin suvarılması təmin olunub, 4 min 364 hektar yeni sahə əkin dövriyyəsinə daxil edilib. Bu gün rayon regionun kənd təsərrüfatı və sənaye məhsullarının istehsalı üzrə ixtisaslaşmış bölgəsi kimi tanınır, muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalına görə öncül yerlərdən birini tutur. Uzunoba Su Anbarının yenidən qurulması, Cəhri və Güznüt kəndlərində drenaj xətlərinin, Xal-xal kəndində suvarma su xəttinin çəkilişinin başa çatdırılması rayonda aqrar sahəyə marağı daha da artırıb, əkinçilikdə və heyvandarlıqda böyük nailiyyətlər əldə edilib. Təkcə 2016-cı ilin ilk beş ayında rayonda 6 milyon 913 min manatdan artıq həcmdə kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu göstərici ötən ilin müvafiq dövrünün nəticəsini 4 faiz üstələyir. Bəhs edilən zaman kəsiyində rayonda diri



çəkidə 924 ton ət, 5746 ton süd istehsal edilib. Ötən ilin ilk beş ayı ilə müqayisədə ət istehsalı 2,1 faiz, süd istehsalı 1,5 faiz artıb. Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının icrası istiqamətində həyata keçirilən tədbirlər Babək rayonunda meyvəçiliyin və tərəvəzçiliyin inkişafına böyük imkanlar yaradıb. Xatırlatmaq yerinə düşər ki, ötən il ərzində rayon ərazisindəki 492,7 hektarlıq meyvə bağlarından 4891 ton məhsul əldə edilmiş, 1932 hektarı əhatə edən tərəvəz sahələrindən 16287 ton tərəvəz yığılmışdı. Bu ilin ilk beş ayında rayonun meyvə və tərəvəz bağlarında müşahidə edilən məhsuldarlıq adıçəkilən sahələrdən bol məhsul əldə ediləcəyindən xəbər verir. “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin icrasına da rayonda xüsusi diqqət yetirilir. Bu il üzümçülüklə məşğul olan torpaq mülkiyyətçiləri bağlardan bol məhsul gözləyirlər. Əminliklə demək olar ki, Babək rayonu bir neçə il sonra sovetlər dövründə üzümçülük sahəsində qazandığı şöhrəti özünə qaytaracaq.

### *Tikinti-quruculuq tədbirləri hər bir yaşayış məntəqəsini əhatə edir*

73 min 600 nəfər əhalisi olan rayonda həyata keçirilən tikinti-quruculuq tədbirləri nümunə gücündədir və bu tədbirlər bütün yaşayış məntəqələrini əhatə edir. Yeni kənd və xidmət mərkəzlərinin, abad yolların, məktəb binalarının və səhiyyə müəssisələrinin tikintisi rayonun inkişaf və tərəqqisindən xəbər verir. Yeni inzibati binalar, müəssisələr, yollar, müasir xəstəxanalar, məktəb binaları, kənd və xidmət mərkəzləri əhalinin yaxşı şəraitdə işləməsinə, məşğulluğunun təmin olunmasına, rahat yaşamasına, sağlamlığının qorunmasına, təhsilinə, rifah halının yaxşılaşmasına, insanların asudə vaxtlarının səmərəli təşkilinə göstərilən qayğının təzahürüdür. Təkcə bir faktı qeyd edək ki, rayonda 2001-ci ildən sonra 30-dan çox məktəb binası tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, təhsil ocaqları müasir avadanlıqlarla təchiz edilib, kəndlərin böyük əksəriyyəti müasir yaşayış məntəqələrinə çevrilib, 1 qəsəbə, 20-dən çox kənd mərkəzi inşa edilib. Babək qəsəbəsindən tutmuş ucqar dağ kəndlərinə qədər yaşayış məntəqələri elektrik enerjisi, mavi yanacaq, içməli və suvarma suyu ilə tam təmin olunub. Elektrik enerjisindən söz düşmüşkən qeyd edək ki, bu rayonda tikilib istifadəyə verilən Naxçıvan Modul və Qaz-Turbin, Naxçıvan Günəş Elektrik stansiyaları muxtar respublikanın elektrik enerjisi ilə təminatında mühüm rol oynayır. Bundan başqa, rayonun qəsəbə və kəndlərinin keyfiyyətli poçt və rabitə xidmətindən yararlanması üçün mühüm tədbirlər həyata keçirilib. Ötən il iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 62417,2 min manat investisiya yönəldilmiş, bəhs olunan dövrdə tikinti-quraşdırma işlərində istifadə olunan investisiyaların həcmi 58339,6 min manat təşkil etmişdi. Bu ilin ilk beş ayında isə bütün maliyyə mənbələrindən əsas kapitala 16 milyon 454 min 900 manat həcmində investisiya yönəldilib, investisiyaların 15 milyon 566 min 800 manatı tikinti-quraşdırma işlərinin payına düşüb. Tikinti-quraşdırma işlərinin həcminin ilbəil artması rayon əhalisinin nümunəvi şəraitdə yaşaması və işləməsinə imkan yaratmaqla bərabər, əhalinin məşğulluğunun təmin olunmasına, sosial rifah halının yaxşılaşmasına da öz töhfəsini verir. Yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində rayonda həyata keçirilən tədbirlər bu bölgənin sosial-iqtisadi inkişafına güclü təkan verib, yük daşınmasında maya dəyərinin aşağı düşməsinə, ucqar yaşayış məntəqələri ilə nəqliyyat əlaqələrinin yaxşılaşmasına və digər problemlərin həllinə səbəb olub. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il avqustun 27-də imzaladığı Sərəncamla yenidən qurulması həyata keçirilən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu rayonun, eləcə də adıçəkilən kəndlərin sosial-iqtisadi inkişafında yeni perspektivlər açıb. Bunun nəticəsidir ki, bu ilin ilk beş ayında 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,4 faiz, sərnişin daşınması 1,6 faiz artıb.



### *Özəl sektorun rayonun sosial-iqtisadi inkişafında xüsusi rolu var*

Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində qısa tarixi dövr ərzində muxtar respublikamızın, eləcə də Babək rayonunun sosial-iqtisadi inkişafı sahəsində çox böyük nailiyyətlər əldə olunub. Dahi rəhbərin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra muxtar respublikada həyata keçirilən düşünülmüş iqtisadi siyasət nəticəsində qısa zamanda makroiqtisadi sabitlik əldə edilib, davamlı iqtisadi artımın əsası qoyulub, iqtisadiyyatın bütün sahələrində islahatlara başlanılıb, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılıb. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Babək rayonunda da sahibkarlar təbəqəsi formalaşıb, özəl sektorun rayonun sosial-iqtisadi inkişafındakı rolu daha da artmağa başlayıb. Rayonda iqtisadiyyatın sürətli artımı baş verib, kiçik və orta sahibkarlıq fəaliyyətinin dəstəklənməsi üçün bir sıra tədbirlər həyata keçirilib. Ayrılan güzəştli kreditlər hesabına sahibkarlar öz fəaliyyətlərini bir qədər də genişləndirib, yeni-yeni istehsal müəssisələri, çoxsaylı iş yerləri yaradıblar. Rayonda çoxsaylı investisiya layihələrinin reallaşdırılması yeni iş yerlərinin yaradılmasına öz töhfəsini verib. Bu gün Babək rayonunda fəaliyyət göstərən istehsal müəssisələrinə nəzər saldıqda burada onların həm çoxprofilli, həm də rayonun, demək olar ki, əksər yaşayış məntəqələrində olduğunu görməkdəyik. Bu, bir tərəfdən yerli işçi qüvvəsinin imkanlarından səmərəli istifadə olunmasına, digər tərəfdən də mövcud xammal və enerji potensialından maksimum istifadəyə imkan yaradır. Hazırda rayonda 80-ə yaxını istehsal təyinatlı olmaqla, 520-dən çox sahibkarlıq subyekti fəaliyyət göstərir. İstehsal müəssisələrində yüzlərlə yeni iş yeri yaradılıb. Muxtar respublikamızda aparılan tikinti-quruculuq işlərində mühüm əhəmiyyətli “Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Babək rayonunun Araz kəndi yaxınlığında yerləşən istehsal müəssisəsi, “Bərəkət Ət Məhsulları Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti, müasir texnoloji avadanlıqlarla təmin olunmuş Babək “Sirab” Açıq Səhmdar Cəmiyyəti rayonun sosial-iqtisadi inkişafına böyük töhfələr verirlər. Rayonda 40-a yaxın lavaş istehsalı sahəsi, dəyirmanlar, şirniyyat məhsulları istehsal edən müəssisələr, istixanalar, quşçuluq təsərrüfatları, dəri emalı, plastik qapı-pəncərələr istehsal edən müəssisələr, gəc sexləri vardır.

*Əgər ulu öndərimiz 1990-cı ildə Naxçıvana qayıtmasaydı, Babək rayonunun da qaranlıq günləri davam edəcəkdi. İndi dünyada baş verən proseslərə diqqət yetirəndə, bir sıra ölkələrdə tökülən qanların səbəbinin məhz anarxiya, vətəndaş qarşıdurması olduğunu görəndə ulu öndərimizi böyük minnətdarlıqla xatırlayır, Onun Azərbaycan, eləcə də Naxçıvan üçün etdiklərinin nə qədər əvəzedilməz olduğunu bir daha dərk edirik. Ulu öndərimizin işıqlı ideyalarının davamçıları tərəfindən görülən işlər nəticəsində o qanlı-qadalı illərin izlərindən əsər-əlamət qalmayıb, hər şey təzələnib. Sovet dönəmində 70 ildə görülən işlər Naxçıvanın 20 illik inkişaf və çiçəklənmə dövrünün bir ilində görülən işlərin kölgəsində qalıb. Bu nailiyyət Naxçıvanın bölgələrinin inkişafı naminə həyata keçirilən düşünülmüş, məqsədyönlü, ardıcıl fəaliyyətin nəticəsidir. İllər ötdükcə Babək rayonu da çiçəklənir, inkişaf edir. Muxtar respublikanın bütün bölgələri kimi, bu rayon da daha parlaq gələcəyə doğru qətiyyətlə addımlayır.*

**Səbuhi HÜSEYNOV**



# Oxucu məktubları



## “Şərq qapısı” qəzetinə yazırlar

## Bir neçə günlük təəssürat

### *Doğulduğum yurdda görülən işlərə, təmizliyə, səliqə-sahmana heyran oldum*

***Bakı-Naxçıvan reysi ilə uçan təyyarədə ikən xəyalən bu qədim diyarın əzəmətli abidələrini, güllü-çiçəkli yaylaqlarını, bumbuz bulaqlarını, qonaqpərvər insanlarını gözlərim önünə gətirirdim. Təyyarə enmək üçün muxtar respublikamızın paytaxtı üzərində dövrə vuranda özümdən asılı olmayaraq elə bil ürəyim “atlandı”: hündürmərtəbəli binalar, yamyaşıl parklar, geniş küçələr yuxarıdan aşağı endikcə daha aydın, daha cazibədar görünürdü. Nəhayət, bələdçi qızın səsi eşidilir: “Əziz sərnişinlər, təyyarəmiz Naxçıvan Beynəlxalq Hava Limanına enir...”***



Aeroportda taksiyə əyləşib Şərur rayonuna istiqamət götürdük. Əvvəlcə onu qeyd edim ki, muxtar respublikamızın paytaxt şəhərində son illər aparılan quruculuq işləri, küçələrdəki təmizlik, səliqə-sahman hər kəsi valeh edir. Naxçıvan şəhərindən Sədərəyə uzanan geniş asfalt yolun sağ və sol tərəflərində salınmış yaşıllıq zolaqları bu qədim diyarın gözəlliyinə yeni çalarlar qatır.

Yenicə səngimiş yağışdan sonra hava açılmışdı, Günəşin ılıq və şəffaf şüaları torpağı bir az da canlandırmışdı. Səma açıq olduğundan uzaqda bir-birinə söykənərək sıralanan uca dağların sinəsinə otlardan, gül-çiçəklərdən salınmış əlvan naxışlar da aydınca görünürdü. Yol yamaclarındakı güllərin ləçəklərinə qonmuş yağış damcıları Günəşin şəfəqləri altında minbir rəngə çalırdı. Təbiətin gözəlliyi bizi valeh etmişdi. Yaxşı deyiblər ki, hər yerin və hər fəslin öz gözəlliyi var, amma onu duymaq gərəkdir. Naxçıvanımız isə onsuz da həmişə gözəldir və bu gözəlliyi hər kəs dəyərləndirir. Fərəh gətirən haldır ki, şəhər və kəndlərdə hər il onlarla yeni binalar həyata vəsiqə alır, tikilib-qurulanlar göz bəbəyi kimi qorunur.

Beləcə, hava limanından Şərur rayonunun ərazisi başlanan yerə kimi, təxminən, 40-45 kilometrlik yolu necə gəldiyimizi hiss etmədik. Gözüm ətrafdan ayrılmır, bu tərəflərdə ilk dəfə olan nəvəm Musaya keçdiyimiz yolboyu kəndlər, tarixi yerlər haqqında bildiklərimi, eşitdiklərimi danışırdım. Püsyan kəndinin üst tərəfində son vaxtlar salınmış meyvə bağlarına çatanda isə qeyri-ixtiyari sürücüdən xahiş etdim ki, maşını saxlasın. Gözümü açandan görmüşdüm ki, buralar bomboz, yalnız tikan bitən çöllər olub. Mənə elə gəlirdi ki, yəqin heç nə bitirmək mümkün olmadığı üçün əkib-becərmirlər. Amma indi müxtəlif meyvə ağacları qol-budaq ataraq bir-birini “qucaqlayıb”. Deməli, insan əli dəyən hər yerdə xarüqələr yaratmaq mümkündür. Təki təşəbbüskarlıq, təşkilatçılıq olsun! Bunlar isə Naxçıvanda var.

Maşınımız Naxçıvan - Sədərək avtomobil yolundan sola dönüb doğulduğum kəndimizə – Siyaquta tərəf istiqamət götürəndə daha çox qürurlandım: kənd yoluna asfalt örtük salınmış, yol kənarlarındakı rabitə, qaz və elektrik dirəkləri təzələnmiş, üçmərtəbəli məktəb, inzibati binalar tikilmiş, yaşıllıqlar salınmışdır. Son illər yenilənmiş digər yaşayış məntəqələrinin sakinləri kimi, siyaqutlular da yaradılan şəraitdən, görülən işlərdən xeyli razıdırlar və bunun səbəbkarlarına minnətdarlıq edirlər.

Səhər uşaqlarla birlikdə rayon mərkəzinə getdik. Son 15-20 ildə görülən işlər nəticəsində Şərur, sözün həqiqi mənasında, gözoxşayan, müasir bir şəhərə çevrilib. Güllü-çiçəkli parklar, bir-birinə boy verən çinarlar, müasir üslubda inşa olunan ictimai və inzibati binalar bu gözəlliyə yeni çalarlar qatır. Hər tərəf yamyaşıl, tərtəmizdir. Parklar gül-çiçək ətrinə bürünüb. Müxtəlif rənglərdə açan həmişəbahar, qızılgül kolları buranı al-əlvan atlasa bənzədir.

Naxçıvan şəhərindən gedəndə yolboyu Püsyan, Xanlıqlar, Danyeri, Aşağı Daşarx, Yuxarı Daşarx kəndlərində aparılan quruculuq tədbirlərinə heyran olmuşdum. Fürsətdən istifadə edib Dizə, Aşağı Yaycı, Gümüşlü kəndlərinə də getdik. Mübaliğəsiz deyirəm ki, təkcə Şərur şəhərində deyil, eyni zamanda kəndlərdə inşa olunan məktəblər respublikamızın iri şəhərlərində fəaliyyət göstərən məktəb binalarından heç də geri qalmır, bəlkə onlardan da əzəmətli, gözəldir. Kənd mərkəzləri, xidmət evləri, digər ictimai və sosial obyektlər yaşayış məntəqələrini kiçik şəhərlərə bənzədir. Hiss olunur ki, xüsusilə yeni tikilmiş binaların qorunub-saxlanması, kəndlərdə təmizlik, səliqə-sahman işləri daim nəzarətdədir. Qalın asfalt örtük döşənmiş kəndlərarası yollar boyu salınmış yaşıllıqlar, yaşayış məntəqələrinin hər yerində mövcud olan təmizlik hər kəsdə xoş təəssürat yaradır.

Bu işıqlı, nurlu diyarda olduğum bir neçə gün, mənə elə gəldi ki, bir neçə saat qədər tez gəlib keçdi. Təəssüfləndim ki, dağ kəndləri Havuşa, Axuraya, Tənənəmə, Şahbulağa getməyə vaxtımız çatmadı. Amma öyrəndim ki, Şərurdakı inkişaf, tərəqqi, yüksəliş bu yerlərə də artıq çoxdandır ayaq açıb. Doğma yurdda görülən işlərə, insanların elə-obaya, torpağa bağlılığına heyran oldum. Beləcə, bir neçə gün məndə bir ömürlük xoş xatirə yaratdı.

*Çalışacağam ki, tezliklə muxtar respublikamıza bir neçə rəfiqəmlə gələk. Qoy onlar da görsünlər ki, şəhəri, kəndi necə saxlayırlar, tikilənləri, qurulanları necə qoruyurlar. Bütün bunlar, ilk növbədə, yüksək təşkilatçılığın, ana yurda, doğma Vətənə, torpağa bağlılığın təntənəsidir.*

**Vəfa ABBASOVA**
***Bakı şəhər sakini***

## Minnətdarlıq

## Çalışırıq ki, bizə göstərilən qayğıya əməli işimizlə cavab verək

***Hörmətli redaksiya!***

***Bu gün Naxçıvan Muxtar Respublikasında gənclər dövlət qayğısı ilə əhatə ediliblər. Əminliklə deyə bilərik ki, uşaq və gənclərimizin gələcəyi etibarlı əllərdədir. Onların layiqli vətəndaş kimi böyüməsi, təhsil alması, cəmiyyətdə mövqe tutması üçün dövlətimiz bütün imkanları yaradıb. Gənclərin yaxşı təhsil almaları, asudə vaxtlarını səmərəli keçirmələri, idmanla məşğul olmaları, məşğulluqlarının təmin edilməsi, milli ruhda tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği xüsusilə diqqət mərkəzindədir. Bu da gənclərimizin qurub-yaratmaq əzmini yüksəltməklə ölkəmizin, muxtar respublikamızın inkişafı naminə çalışmalarına stimul olub.***



Hər il muxtar respublikamızda onlarla yeni obyektlər istifadəyə verilir. Bu obyektlər sırasında məktəblər, uşaq bağçaları, məktəbdənkənar tərbiyə və idman müəssisələri üçün binalar çoxluq təşkil edir. Bütün bunlar ölkəmizin gələcəyi etibar ediləcək gənclərin fəal həyat mövqeyinin təmin olunmasında başlıca amillərdir.

Mən də özümü həmin gənclərdən biri hesab edirəm. Bir az əvvələ qayıdaraq deyim ki, ali təhsilimi başa vurduqdan sonra işlə təmin olunmaq üçün Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə müraciət etdim. Mənə və ixtisasca ingilis dili müəllimi olan həyat yoldaşıma Şahbuz rayonunun Şada kənd tam orta məktəbində işləməyi məsləhət gördülər.

Razılaşdıq. Ancaq bu kəndə getməmişdən düşünürdüm ki, bu sərhəd yaşayış məntəqəsində işləmək bizim üçün çətin olacaq. Kəndlə tanışlıqdan sonra fikrimdə yanıldığımı gördüm. Belə ki, Şada bu gün muxtar respublikanın müasir yaşayış məntəqələri sırasındadır. Naxçıvan-Şahbuz magistralının Sələsüz kəndi ərazisindən başlayaraq kəndə gedən yol müasir standartlar səviyyəsində yenidən qurulub. Yol kənarlarındakı yaşıllıqlar buradan keçənlərin zövqünü oxşayır. Badamlı qəsəbəsi və kəndində aparılan kompleks quruculuq tədbirlərindən Şadaya da pay düşüb, burada müasir infrastruktur yaradılıb. Bu gün Şada kəndində insanların rahat yaşayışı üçün bütün tədbirlər görülüb. Kəndin müdafiəsi hərtərəfli təşkil olunub, dövlət qurumları üçün bina tikilib, rahat yol çəkilib, müasir məktəb binası istifadəyə verilib.

Şada kənd tam orta məktəbində tədrisin səmərəsini yüksəltmək üçün yaradılan şərait bütün müəllimlərin, eləcə də valideyn və şagirdlərin ürəyincədir. Ailəmiz yüksək məişət şəraiti ilə təmin edilib. Belə kənddə yaşamaqdan və məktəbdə işləməkdən qürur hissi duyuram. Ali təhsilini başa vurub müəllimlik peşəsinə yiyələnən gənclərimizi də bu kənddə müəllim işləməyə dəvət edirəm.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri biz gənclərə tövsiyə verərək demişdir: ***“Harada yaşamasından və fəaliyyət göstərməsindən asılı olmayaraq hər bir şəxs, ilk növbədə, dövlətinə və xalqına xidmət etməli, ölkəmizin gələcəyi üçün məsuliyyət daşımalıdır”.***

Ali Məclis Sədrinin tövsiyəsi, bizə göstərdiyi qayğı öz işimizə məsuliyyətimizi xeyli artırıb. Çalışırıq ki, bizə göstərilən qayğıya əməli işimizlə cavab verək, təhsilli və vətənpərvər gənclər yetişdirməklə göstərilən etimadı doğruldaq.

**Ayxan MEHDİYEV**
***Şahbuz rayon Şada kənd tam orta məktəbinin müəllimi***

## Yaradılan nümunəvi şəraitə, göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarıq

***Gözəl təbiəti, səs-küylə axan, gözyaşıtək dumduru dağ çayı, təmiz havası ilə əsrarəngiz gözəlliklərə bürünən Ordubad rayonunun Nürgüt kəndi qədim yaşayış məskənlərindən biridir.***

Ağsaqqal və ağbirçəklərin dediklərinə görə, bu yaşayış məntəqəsinin adı “Nur” və “qutlamaq” sözlərindən yaranmışdır. Kənd dağlar arasında yerləşdiyindən Günəş şüası düzənliklərə nisbətən bura daha gec gəlib çatır.

XIX əsrin axırları, XX əsrin əvvəllərində 225 evi olan Nürgüt kəndi sovet dönəmində gözdən-könüldən uzaq bir yer, “perspektivsiz” bir kənd olmuş, dəfələrlə bu kəndin köçürülməsi məsələsi ortaya atılsa da, şükürlər olsun ki, qərarlar həyata keçirilməmişdir. Keçmişdə kəndin çətinliklərinə dözə bilməyən bir neçə ailənin burdan köçüb getməsi, təbii ki, hər birimizin qəlbini sıxırdı.

Son 20 ildə Nürgütün həyatında müsbət dönüş yaranıb. Belə ki, kənd yolları abadlaşdırılıb, hər bir evə mavi yanacaq verilib, telefon xətti çəkilib, məktəb binası və xidmət mərkəzi istifadəyə verilib.

2002-ci ildə tikintisi başa çatdırılaraq kənd camaatının istifadəsinə verilən yaraşıqlı məktəb binası Nürgüt kəndinin tarixində görünməmiş bir yenilik oldu. 2013-cü ildə Nürgüt kənd tam orta məktəbi əsaslı surətdə təmir olunaraq istifadəyə verildi. Burada şagirdlərin təhsil alması, vətənpərvər bir gənc kimi yetişməsi üçün hər cür şərait yaradılıb. Təhsil ocağında elektron lövhəli sinif və kompüter otaqları, birbaşa yüksək sürətli internet şəbəkəsi, bədii ədəbiyyatlarla və dərslik kitabları ilə zəngin olan kitabxana, laboratoriya, hərbi kabinə, şahmat otağı şagirdlərin istifadəsinə verilib.

Məktəbdə şagirdlərə biliyin sirlərini öyrədən təcrübəli müəllimlər yetərincədir. Onlarla çiyin-çiyinə çalışan gənc müəllimlərimiz də var. Şərur rayonundan gəlmiş ingilis dili müəllimi Cavanşir Quliyevi, Kəlbəcər rayon sakinləri Elşad və Zaur İsmayılovları, Bakı şəhərindən gəlmiş kimya müəllimi Rauf İmaməliyevi misal göstərə bilərəm. Onu da qeyd etmək istəyirəm ki, təyinatla gəlmiş müəllimlərin əksəriyyətinin könlünü fəth etmiş bu kənd onları öz gözəl təbiətinə vurğun edə bilib. Hətta onlardan bir neçəsinin istəyi burada məskunlaşıb yaşamaqdır.

Nürgüt kəndinin havası, suyu qədər insanları da saf, təmiz və zəhmətsevərdirlər. Bu ucqar dağ kəndinə gələn qonaqlar kənd əhalisinin necə qonaqpərvər olduqlarını öz gözləri ilə görürlər. Bu qonaqpərvərliyə rahat yaşamaq üçün dövlətimiz tərəfindən yaradılan şərait də yüksək stimul verib. Kəndimizdə yaradılan nümunəvi şəraitə, göstərilən diqqət və qayğıya görə dövlətimizə dərin minnətdarlığımızı bildiririk.

**Qüdrət QULİYEV**
***Nürgüt kənd sakini***

## Şəfalı əlləriniz var olsun!



*Hörmətli redaksiya!* Naxçıvanda Diaqnostika-Müalicə Mərkəzinin fəaliyyətindən çoxdan xəbərdar olsam da, personalın və tibbi xidmətin vəziyyətindən məlumatsız idim. Bir neçə gün öncə səhhətimdə yaranan ciddi problem məni bu ünvana üz tutmağa məcbur etdi. Halsız vəziyyətdə daxil olduğum tibb ocağında ilk andan – giriş qapısında qeydiyyatçıdan tutmuş bütün həkimlərin nəzakətini, mehriban davranışını hiss etdim. Dərhal Kardiologiya şöbəsinə götürüldüm. Gənc, gözlərindən peşəsinə vurğunluğu duyulan, hələ aparatlarla müayinəyə başlamadan əlləri ilə ağrılarımı sezib müəyyən edən Nail həkimin həlim, şirin sorğularına cavab verdikcə, sanki içimdəki ağrılar da azalmağa başlamışdı.

Təhlillərdən sonra cavab gəldi. Ürək damarımın biri tamamilə tutulmuşdu. Əməliyyat blokuna aparıldım. İki saatdan artıq davam edən gərgin əməliyyat uğurla başa çatdı. Ürək damarıma stent qoyuldu. Yaşımın 70-dən yuxarı olduğunu nəzərə alsam, əlbəttə, kəskin ağrılarla buraya gələndə ətrafımdakı doğmalarıma hiss etdirmədiyim yaşamaq ümidlərim də azalmışdı. Həkimlərin inamlı danışıqları, bir dəqiqə belə, məni gözdən buraxmayan tibbi personalın səyi nəticəsində əməliyyatın ertəsi gün ayağa qalxmağım üçün heç bir qorxulu şey qalmadı. Artıq evimdə-eşiyimdəyəm. Övladlarıma, candan əziz saydığım nəvələrimə qovuşmuşam. Özümü çox yaxşı hiss edirəm, bir müddət əvvəl çəkdiyim ağrı-acılar artıq geridə qalıb.

Son illər muxtar respublikamızda səhiyyə ocaqlarının inkişafına, tibbi xidmətin yüksəldilməsinə xüsusi diqqət yetirilməsi hər birimizin ürəyincədir. Əvvəlki vaxtlardan fərqli olaraq tibb müəssisələrimizdə xidmət mədəniyyətinin yüksəldilməsinə olan tələblərin artırılması, xəstəxanaların müasir tibbi avadanlıqlarla təmin olunması insanların sağlamlığının etibarlı qorunmasına şərait yaradıb. Naxçıvanda yaradılan bu şəraitə görə dövlətimizə minnətdarlığımı bildirir, həkimlərimizə isə “Şəfalı əlləriniz var olsun” deyirəm.

**İsmayıl HÜSEYNQULİYEV**
***Kəngərli rayon Qıvraq qəsəbə sakini***

# Ağbulaq İstirahət Mərkəzinin budəfəki qonaqları Yüngül Atletika Federasiyasının idmançıları idi





Cari il mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən, idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunur. İyulun 3-4-də mərkəz növbəti qonaqlarını – Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının 45 yetirməsini qəbul edib. Mərkəzdə yeniyetmə idmançıları təşkilatçı qurumların əməkdaşları qarşılayıblar.

İki gün Ağbulaq İstirahət Mərkəzində qalan yeniyetmə atletlər bu müddət ərzində müxtəlif stolüstü oyunlarda mübarizə aparıblar. Şahmat, dama kimi zehni oyunlarda idmançıların nümayiş etdirdikləri oyunlar diqqətdən yayınmayıb. Bununla yanaşı, atletlər mini-futbol yarışında da qüvvələrini sınayıblar. Federasiya üzvləri Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanış olublar. Daha sonra onların "Ağbulaq" bulağına yürüşü keçirilib. Qonaqlara vətənpərvərlik mövzusunda "Nuh yurdu – Naxçıvan" sənədli filmi nümayiş etdirilib, əyləncəli proqramlar təşkil olunub.

"Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahət bizim yaddaşımızda dərin iz buraxacaq" – bu sözləri bizimlə söhbətində federasiyanın üzvü Aylin Rzazadə dedi. O bildirdi ki, həyatının gözəl günlərindən birini məhz bu mərkəzdə keçirib: "Mərkəz haqqında eşitmişdim və burada olmağı çox istəyirdim. Gördüklərim məni heyrətləndirdi. Asudə vaxtın düzgün təşkilində belə istirahətlər biz idmançılar üçün hər zaman sevinclə qarşılanır".

Müjdə Məmmədova da istirahət mərkəzində yaradılmış hərtərəfli şəraitə görə minnətdarlığını bildirdi.

Uzun müddətdir, yüngül atletika ilə məşğul olan və keçirilən yarışlarda fərqlənən Uğur Cəfərli də fikirlərini bizimlə bölüşdü: "Ağbulaq İstirahət Mərkəzinə ilk dəfədir ki, gəlirəm. Gözəl vaxt keçirdik. "Ağbulaq" bulağına yürüş isə daha yaddaqalan oldu".

Qeyd edək ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

**Ceyhun MƏMMƏDOV**

*Naxçıvan Dövlət Film Fondunda "Azərbaycan Kinosu Günü" çərçivəsində "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu?" sənədli filmi nümayiş etdirilib.*

# "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu?" sənədli filmi nümayiş olunub

Filmin nümayişindən əvvəl Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov çıxış edərək bildirib ki, İkinci Dünya müharibəsində Azərbaycan neftinin qələbənin təmin edilməsində rolu haqqında çoxsaylı bədii əsərlər yazılsa, filmlər çəkilsə də, bu gün nümayiş etdirilən film bir neçə maraqlı fakt ortaya qoyur.

Filmdə "mühərriklər müharibəsi" adlandırılan İkinci Dünya müharibəsinin tarixinə tamamilə yeni mövqedən – neft uğrunda döyüş mövqeyindən baxılır. Müharibə zamanı Sovet İttifaqının neftə olan tələbatının 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşmüşdür. Qələbənin təmin edilməsində həlledici rol oynamış tank və təyyarələrin tam əksəriyyəti Bakı neftçilərinin göndərdiyi yanacaqla hərəkətə gətirilirdi. Bakı və onun "qara qızılı" Hitlerin ələ keçirmək istədiyi ən qiymətli sərvət idi. Filmin cəlbedici cəhətlərindən biri bu günədək nümayiş etdirilməyən kinokadrların bərpa olunaraq rəngli formatda təqdim edilməsidir. Heydər Əliyev Fondunun dəstəyi ilə çəkilən film keçən il dünyanın tanınmış "National Geographic" kanalında da göstərilib. Filmin layihə rəhbəri Arzu Əliyeva, prodüseri Lui Vodevil, rejissoru Robert Maqnerotdur. Bakı Media Mərkəzi və fransız kino şirkəti "CC&C"-nin birgə çəkdiyi bu film 10 dilə tərcümə olunub, dünyanın bir çox ölkələrində nümayiş etdirilib.

Sonra filmin nümayişi olub. Film tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**

# 50-55 yaşlı əhalinin profilaktik tibbi müayinələri davam etdirilir

Profilaktik tədbirlər düzgün həyata keçirildikdə xəstəliklərin vaxtında aşkar olunması, sağalması asanlaşır, ağırlaşmaların qarşısı alınır, insanların əmək qabiliyyətləri qorunub saxlanılır, əlillik azalır. Bu məqsədlə müxtəlif yaş qruplarına, xüsusən risk qrupuna daxil olan əhali kütləvi profilaktik müayinələrə cəlb olunur. Son illərdə insanlar arasında ürəyin işemik xəstəlikləri, hipertoniya, şəkərli diabet, onkoloji və digər xəstəliklər artdığından onlar arasında profilaktik müayinə tədbirlərinin aparılması xüsusi əhəmiyyət kəsb edir.

Qanda xolesterinin artıqlığı, siqaretçəkmə, yüksək arterial təzyiq, şəkərli diabet, oturaq həyat tərzi, adenomiya, qeyri-düzgün qidalanma, kəskin və xroniki streslərə məruzqalma halları damarların zədələnməsinə, ateroskleroz prosesinin inkişafına səbəb olur. Beləliklə, ürək, beyin, aorta, aşağı ətraf arteriyalarında aterosklerotik düyünlər formalaşır ki, bunlar da sonradan inkişaf edərək ürəyin işemik xəstəliklərinə, beyin qan dövranının pozulmasına, aşağı ətraf arteriyalarının tıxanmasına gətirib çıxarır. Nəticədə, miokard infarktı, stenokardiya, insult, aşağı ətrafın qanqrenası kimi ağır xəstəliklər yaranır. Belə xəstəliklərin qarşısını vaxtında almaq məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq bu il aprelin əvvəllərindən 50-55 yaşlı əhalinin kütləvi müayinə tədbirləri, dispanserizasiyası həyata keçirilir.

Müayinələr Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında və rayon mərkəzi xəstəxanalarında tərtib edilmiş iş qrafiki əsasında, terapevt, cərrah, ginekoloq, stomatoloq, oftalmoloqlar tərəfindən həyata keçirilir, ehtiyac olan hallarda xəstələrə yüksəkixtisaslı həkimlərin, o cümlədən nevropatoloq, psixiatr, endokrinoloq, uroloq, ftiziatr, kardioloq və başqalarının konsultasiyası və laborator-diaqnostik müayinələr təşkil edilib. Müayinə olunanlarda qanda xolesterinin təyin edilməsi üçün mərkəzi rayon xəstəxanalarına və Naxçıvan Şəhər Poliklinikasına portativ aparatlar verilib və stript testi ilə təmin ediliblər. Feldşer-mama məntəqələri, həkim ambulatoriyaları, Naxçıvan şəhərində isə sahələr üzrə 50-55 yaşlılarda həkim müayinələri və xolesterinin miqdarının təyini aparılıb.

Bütövlükdə, aprel ayından indiyədək muxtar respublika üzrə 50-55 yaşlı əhalidən 2 min 998 nəfəri profilaktik tibbi müayinələrə cəlb olunub, 390 nəfər dispanser qeydiyyatına götürülüb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Mütəxəssis sözü*

# Pomidoru fitoftora xəstəliyindən qoruyaq

***Naxçıvan Muxtar Respublikası ərazisinin torpaq-iqlim şəraiti ilboyu tərəvəz bitkilərinin becərilməsinə imkan verir. Burada, əsasən, pomidor, xiyar, badımcan, kələm, bibər, lobya və səbzə-tərəvəz, o cümlədən göy soğan, turp, kahı, keşniş və digər məhsullar becərilir. Bunlardan bəziləri isti havaya daha çox tələbkar olur.***



Məsələn, xiyar bitkisində 14 dərəcədən, pomidor, badımcan və bibərdə isə 12 dərəcədən aşağı temperaturda boyatma prosesi dayanır. Odur ki, bu bitkilərdən faraş məhsul almaq üçün onlar əvvəlcə isti şitilliklərdə becərilir, sonra açıq sahələrə köçürülür. Amma istər şitilliklərdə və istərsə də açıq sahələrdə onların normal inkişafına bir çox amillər təsir edir ki, bu da tərəvəz bitkilərinin məhsuldarlığının aşağı düşməsinə səbəb olur. Bu amillərdən biri də tərəvəz bitkilərinin müxtəlif xəstəliklərə yoluxmasıdır. Bu yazımızda pomidor bitkisinin yoluxduğu xəstəliklər və həmin xəstəliklərin müalicəsi barədə oxucularımıza məlumat vermək istəyirik.

Pomidor bitkisində ən geniş yayılmış fitoftora, ağ ləkə, qonur ləkə, makrosporoz, bakterial xərçəng, virus xəstəliklərini göstərmək olar.

Fitoftora xəstəliyi Azərbaycan Respublikasının tərəvəz becərilən bütün rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında yayılaraq, xüsusilə gec əkilən pomidor sahələrinə böyük ziyan verir. Xəstəlik pomidorun meyvə, yarpaq və gövdələrini zədələyərək tünd-qonur ləkələr əmələ gətirir. Meyvələr çürüyərək yerə tökülür. Xəstə meyvə bərk olur. Fitoftora xəstəliyi ən çox yetişməmiş meyvələri zədələyir.

Bu xəstəliyin təsirindən yarpaqların kənar hissələrində tündqonur iri ləkələr törəyir. Yarpağın alt səthində, ləkələr olan yerlərdə zəif ağ örtük inkişaf edir. Ağ örtük meyvələrdə də inkişaf edə bilir.

Fitoftora xəstəliyini törədən göbələk qışı mitsel halında bitki qalıqlarında keçirir. Bu xəstəlik bitkilərin ikinci vegetasiya dövründə, meyvə əmələ gələn vaxtda inkişaf edir. Fitoftora xəstəliyi yayın ortalarında və payız aylarında havaların rütubətli keçməsi ilə əlaqədar olaraq daha da intensivləşir. Xəstəliyə istixana şəraitində də rast gəlinir. Xəstəliyin təsirindən meyvələr keyfiyyətcə pisləşir və əmtəəlik xüsusiyyətlərini itirir. Məhsuldarlıq xəstəliyin dərəcəsindən asılı olaraq 30 faizdən 70 faizə qədər itirilə bilər. Ona görə də pomidorun bu xəstəliyi ilə ciddi mübarizə tədbirləri həyata keçirilməlidir. Birinci növbədə, pomidor əkini sahəsi kartof sahəsindən xeyli aralı olmalıdır. Məhsul toplandıqdan sonra bitki qalıqları sahələrdən təmizlənməli və yeri dərindən şumlanmalıdır. Xəstəliyə qarşı davamlı sortlar əkilməlidir. Pomidor bitkisinin tez əkilməsi və faraş yetişdirilməsi fitoftora xəstəliyinin qarşısını alır. Pomidor əkini sahələrində xəstəliyin ilk nişanələri göründükdə 1 faizli bordo mayesi, yaxud 0,3 faizli mis-xloroksid, 0,5 faizli kaptan, 0,4 faizli kuprazon preparatlarının suspenziyaları ilə çiləmə aparılmalıdır. Çiləmə hər 10 gündən bir 3-4 dəfə (və daha artıq) təkrar edilməli, hər hektar sahəyə 500-600 litr hazırlanmış işçi məhlulundan istifadə olunmalıdır.

Yüksək məhsul götürülməsi üçün sahibkarlar və torpaq mülkiyyətçiləri pomidorun bu qorxulu xəstəliyi ilə mübarizə tədbirlərini vaxtında aparmalı, aqrotexniki tədbirlərə ciddi əməl etməlidirlər.

Əkin üçün toxum materialının yoluxmamış sahələrdən götürülməsi və əkindən 5-6 gün qabaq dərmanlanması məsləhət görülür.

**Yaşar QULİYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

# Məlumat

Muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırılır ki, tələbatdan artıq istehsal etdikləri meyvə və tərəvəz məhsullarını soyuducu anbarlar aşağıdakı qiymətlərlə qəbul edir.

*Kartof I növ – 40 qəpik*
*Kartof II növ – 25 qəpik*
*Soğan I növ – 35 qəpik*
*Soğan II növ – 25 qəpik*
*Alma I növ – 50 qəpik*
*Alma II növ – 30 qəpik*

Məhsulları tədarük edən soyuducu anbarların ünvanını və əlaqə telefonlarını bildiririk.

| S/№ | Hüquqi və fiziki şəxsin adı | Ünvanı | Əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" MMC | Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi | (050) 516-45-61<br>(050) 893-45-61<br>(060) 540-94-64 |
| 2. | "Yusifoğlu" firması | Şərur rayonu, Məmmədsabir kəndi | (070) 222-13-67<br>(050) 560-02-02 |
| 3. | Fiziki şəxs Ramiz Həsənov | Şərur rayonu, Danyeri kəndi | (050) 213-55-54<br>(070) 213-55-54 |
| 4. | Fiziki şəxs Əli Musayev | Şahbuz şəhəri, "28 May" küçəsi | (050) 678-28-40<br>(036) 543-41-02 |
| 5. | Fiziki şəxs Müsrza Əliyev | Ordubad şəhəri, N.Rzayev küçəsi | (050) 325-87-77 |
| 6. | Fiziki şəxs Rəşid Abbasov | Kəngərli rayonu, Yurdçu kəndi | (051) 841-18-39 |
| 7. | Fiziki şəxs İlham Abdullayev | Sədərək rayonu, Sədərək kəndi | (070) 871-86-06 |

***Qeyd:*** Kənd təsərrüfatı məhsullarının istehsalçıları öz məhsullarını yuxarıda qeyd edilən sahibkarlara müraciət edib icarə müqaviləsi əsasında soyuducu anbarlarda saxlaya bilərlər.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi***

# Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Culfa rayonunun Gülüstan icmasının tender komissiyası icma qrupunun hazırladığı "Yolun təmiri" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki baza və insan resursları barədə məlumat*
* *Son 3 ildə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması.*

Qeyd olunmuş sənədlər toplusunu 11 iyul 2016-cı il, saat $18^{00}$-a kimi tender komissiyasına təqdim etmək lazımdır.

**Culfa rayonu, Gülüstan kəndi tender komissiyası icma qrupunun sədri Pəri Tağıyeva.**
**Əlaqə telefonu: (070) 901 00 49**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 514